**Sığorta bazarı canlanır**

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyət sığortası üzrə son bir ayda 74,1 mindən çox sığorta müqaviləsi bağlanıb

Ölkədə sığorta bazarının inkişafı istiqamətində görülən işlər sayəsində insanların sığorta sahəsinə inamı artmışdır. Sığorta bazarına kütləvi maraq ötən ilin sonlarından yeni «İcbari sığortalar haqqında» Qanunun tətbiqindən sonra gücləndi. Dörd icbari sığorta növünü (daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin və sərnişinlərin icbari sığortası) özündə birləşdirən bu qanun insanların sığorta şirkətlərini tanımasına, onlara etibar etməsinə şərait yaratdı. Sığorta bazarının canlanmasının daha bir səbəbi də vətəndaşların üzərinə düşən məsuliyyətin müəyyənləşdirilməsi ilə bağlıdır. İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, Azərbaycanda icbari sığorta üzrə müqavilə bağlamamağa görə fiziki şəxslər üçün cərimənin məbləği 10 manat, vəzifəli şəxslər üçün 60 manatdan 80 manatadək, hüquqi şəxslər üçün 150 manatdan 200 manatadək müəyyən edilmişdir.

«Yol hərəkəti haqqında» Qanuna əsasən, sığorta olmamasına görə sürücünün avtomobili idarə etmək hüququndan məhrum edilməsi, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası olmadan avtomobillərin texniki baxışdan keçə bilməməsi kimi cəzalar nəzərdə tutulur.

İcbari sığorta növləri üzrə sığorta müqaviləsi istənilən sığorta şirkəti tərəfindən verilmir. «İcbari sığortalar haqqında» Qanunda nəzərdə tutulan hər hansı icbari sığorta növünü aparmağa icazə almaq və bu növ üzrə fəaliyyət göstərmək üçün sığortaçı İcbari Sığorta Bürosunun (İSB) iştirakçısı olmalı, müvafiq icbari sığorta növü üzrə müəyyən edilmiş məbləğdə təminat depoziti yerləşdirməlidir. İSB-nin üzvü olmayan və hər hansı sığorta növü üzrə icazəsi olmadan fəaliyyət göstərmək qanunvericilikdə müəyyən edilmiş qaydada cərimələnməyə səbəb olur. Belə bir qanun pozuntusuna görə vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən 50 mislinədək, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz iyirmi mislindən yüz altmış mislinədək məbləğdə cərimə edilir.

Hazırda Büroya 12 sığorta şirkəti üzv olub və onlardan 11-nin avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə fəaliyyət göstərməsinə icazə verilib. Bir sığorta şirkətinin - «Alfa Sığorta» ASC-nin Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün aparılmasına verilmiş icazəsi isə iyul ayından etibarən dayandırılmışdır.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının insanlar arasında daha populyar olmasının əsas səbəbi sığorta şirkətlərinin bu növ üzrə təklif etdikləri xidmətlərin sadələşdirilməsidir. Bura sığorta şəhadətnaməsinin  onlayn formada alınmasının mümkünlüyü, kredit kartının («Albalı kart») köməyi ilə sığorta məbləğini hissələrlə, faizsiz ödəmək imkanının olması, məlumatların SMS vasitəsilə əldə edilməsi daxildir. Yeri gəlmişkən onu da deyək ki, bu günlərdə İcbari Sığorta Bürosu «9707» SMS xidmətini istifadəyə verib. Bundan sonra «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» üzrə sığortalı sığorta müqaviləsini bağlayarkən, müqavilədə göstərdiyi mobil telefon nömrəsinə İcbari Sığorta Bürosunun informasiya sistemi vasitəsilə müqavilənin təsdiqi ilə bağlı məlumatları (sığorta şirkətinin adı, avtonəqliyyat vasitəsinin nömrəsi, müqavilənin müddəti, müqavilənin nömrəsi, həmçinin sığorta haqqı) əks etdirən SMS bildiriş göndəriləcəkdir. Həmçinin, sığortalı İcbari Sığorta Bürosunun informasiya sistemində olan məlumatlar əsasında sığorta müqaviləsinin ləğvi, xitamı və müqavilənin başa çatma tarixinə 15 gün qalmış onun etibarlılıq müddətinin bitməsi haqqında SMS bildiriş alacaqdır. Hər üç mobil operatorun («Azercell»,  «Azerfon» və «Bakcell») abonentləri bu xidmətdən yararlana biləcəklər.

Ötən ay ərzində İcbari Sığorta Bürosunun informasiya sistemi vasitəsilə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ümumilikdə 74,1 mindən çox sığorta müqaviləsi bağlanmışdır ki, bunların da 20,4 minə qədərini xarici ölkədə qeydiyyata alınmış və Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri ilə bağlı olan və 1 ay müddətinə bağlanan icbari sığorta müqavilələri təşkil edir.

AYTƏN